# Səhiyyə

“Xalqımızın ümummilli lideri Heydər Əliyev də daim səhiyyəyə böyük diqqətlə yanaşırdı. Onun təşəbbüsü ilə Azərbaycanda bu sahədə böyük işlər görülmüşdür.”

***Siyəzən rayon Mərkəzi Klinik Xəstəxanasının açılış mərasimində nitqindən***
***(24 dekabr 2004)***

***

“2006-cı ildə səhiyyə sistemində yeni xəstəxanalar, yeni poliklinikalar tikiləcəkdir. Eyni zamanda, səhiyyə xidmətinin səviyyəsi qalxmalıdır.”

***2005-ci ilin sosial-iqtisadi yekunlarına həsr olunmuş iclasda yekun nitqindən***
***(31 yanvar 2006)***

***

“Dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə nəzər salsaq görərik ki, harada səhiyyəyə böyük sərmayələr qoyulur, elmi tədqiqatlara böyük vəsait ayrılır, o ölkələrdə tibb sahəsi daha da inkişaf edir. Biz də bu gözəl təcrübədən istifadə etməliyik.”

***Bakıda Elmi Onkoloji Mərkəzin yeni cərrahiyyə***
***korpusunun təməlqoyma mərasimində nitqindən***
***(1 iyun 2006)***

***

“Səhiyyə sisteminin möhkəmlənməsi işində planlarımız çox böyükdür. İndi müxtəlif bölgələrdə müasir diaqnostika və müalicə mərkəzləri tikilir. Həm diaqnostika, həm də müalicə bir yerdə olacaqdır. Çünki bəzi hallarda insanlarımız bu imkanları hələ əldə etməyiblər ki, vaxtlı-vaxtında müayinədən keçsinlər, onların xəstəlikləri vaxtında müəyyən olunsun. Belə imkan olan halda, əlbəttə ki, insanların sağlamlığı möhkəm olacaq və daha da çox yaşayacaqlar. Bildiyiniz kimi, bu müalicə və diaqnostika mərkəzləri bölgələrdə tikilir və tikiləcəkdir.”

***Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının***
***üç illiyinə həsr olunmuş konfransda yekun nitqindən***
***(13 fevral 2007)***

***

“...insanlar yüksək səviyyəli tibbi xidmət almalıdırlar. Xəstəxanalar gözəl olmalıdır, hər yerdə avadanlıq müasir olmalıdır, çox gözəl şərait yaradılmalı, peşəkar kadrlar olmalıdır. Bu baxımdan Azərbaycan Tibb Universitetinin də çox böyük rolu, çox böyük xidməti var. Azərbaycanda peşəkar tibb kadrlarının yetişdirilməsi üçün burada çox böyük işlər görülür.”

***Azərbaycan Tibb Universitetinin tədris-terapevtik***
***klinikasının təməlqoyma mərasimində nitqindən***
***(18 sentyabr 2007)***

***

"Səhiyyə məsələlərinin həlli üçün son beş il ərzində 2 milyard dollar vəsait xərclənibdir və burada səsləndi ki, 200-dən çox tibb müəssisəsi yaradılıbdır. Onların içində ən böyük tibb müəssisələri də vardır."

***Nazirlər Kabinetinin 2008-ci ilin doqquz ayında sosial-iqtisadi inkişafın yekunlarına həsr olunmuş geniş iclasında yekun nitqindən (13 oktyabr 2008)***

***

"Ümumiyyətlə, son illər Azərbaycanda səhiyyə sisteminin təkmilləşməsi işində çox böyük addımlar atılmışdır, böyük işlər görülmüşdür, müvafiq qərarlar verilmişdir. Azərbaycanda son illər ərzində artıq istifadəyə verilmiş və inşa edilən səhiyyə müəssisələri bizim tələbatımızı demək olar ki, tam ödəyəcəkdir."

"Biz - Azərbaycan dövləti və Azərbaycan hökuməti elə etməliyik ki, həkimlərin sosial məsələləri də həll olunsun. Həkimlərin həm maaşları daha da çox qaldırılsın, - bu istiqamətdə lazımi tədbirlər görülür, - həm də iş şəraiti yaxşılaşsın. Bu gözəl tibb mərkəzləri təkcə xəstələrə xidmət etmir, eyni zamanda, burada həkimlərin iş şəraiti də çox yüksək səviyyədədir. Bu da Azərbaycan dövlətinin siyasətidir. Hər bir yerdə iş şəraiti yaxşı olmalıdır, bizim insanlarımız ən müasir şəraitdə işləməlidir və yaşamalıdır."

***Akademik Zərifə Əliyeva adına Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunun yeni binasının açılışı mərasimində çıxışından (22 may 2009)***

***

"...son illər ərzində Azərbaycanın səhiyyə sahəsində əldə etdiyi uğurlar daha da əhəmiyyətli olacaqdır. Çünki bütün bu işlərin təməlində insan amili dayanır. İnsanlara xidmət, insanların ömrünün uzadılması, sağlam həyat tərzi, sağlamlıq - bütün bunlar çox vacib məsələlərdir. İndi bizdə imkanlar var ki, müxtəlif yerlərdə, böyük şəhərlərdə, rayonlarda ən müasir tibb xidməti göstərək. Bu, çox vacibdir. Təkcə Bakıda, yəni paytaxtda deyil, müxtəlif bölgələrdə müalicə-diaqnostika mərkəzləri tikilir. Vaxtilə tikilmiş və yararsız vəziyyətə düşmüş mərkəzi rayon xəstəxanaları əsaslı təmir olunur, yeni xəstəxanalar, tibb ocaqları tikilir. Yəni, Azərbaycanda bu proses çox geniş vüsət alıbdır. Bu, bir daha onu göstərir ki, siyasətimizin təməlində insana münasibət və qayğı durur."

***Cəlilabad rayonuna səfəri çərçivəsində rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə çıxışından (29 aprel 2010)***

***

"Dövlətimiz insanların sağlamlığının təmin edilməsi üçün əlindən gələni etməyə çalışır. Son illərdə səhiyyə sisteminin maddi-texniki bazasının gücləndirilməsi üçün konkret addımlar atılmışdır. Çünki bildiyiniz kimi, müstəqilliyimizin ilk illərində Azərbaycanda iqtisadi vəziyyət çox ağır idi, ölkədə böhran hökm sürürdü, maliyyə imkanlarımız çox məhdud idi və vaxtilə - keçmiş dövrlərdə yaradılmış səhiyyə müəssisələri də yararsız vəziyyətə düşmüşdü. Biz çox istəyirdik ki, tezliklə bu məsələ ilə bağlı dönüş yarada bilək. Son bir neçə il ərzində Azərbaycanda tikilmiş və əsaslı təmir edilmiş səhiyyə müəssisələri bu gün müasir Azərbaycanın reallıqlarını əks etdirir. Son illər ərzində ölkəmizdə 400-dən artıq səhiyyə müəssisəsi tikilib və yaxud əsaslı şəkildə təmir edilib. Onların arasında xüsusi əhəmiyyət kəsb edən, son bir neçə il ərzində Bakıda yaradılmış Onkoloji Mərkəzi qeyd etmək istərdim. Eyni zamanda, çox müasir Oftalmologiya Mərkəzi, Urologiya Mərkəzi, Talassemiya Mərkəzi tikilmişdir, Elmi Cərrahiyyə Mərkəzi yaradılmışdır. Ölkəmizdə Perinatal mərkəzlər yaradılır. Demək olar ki, bütün şəhərlərdə xəstəxanalar təmir olunur və tikilir. 14 şəhərdə ən müasir standartlara cavab verən Müalicə-Diaqnostika mərkəzləri tikilmişdir və orada hemodializ qurğuları quraşdırılmışdır. Qeyd etmək istəyirəm ki, dövlət səhiyyə müəssisələrində bütün xidmətlər pulsuzdur."

“...səhiyyə sahəsində aparılan islahatlar, ən mütərəqqi təcrübənin Azərbaycanda tətbiq edilməsi, beynəlxalq əlaqələr, həkimlərimizin təkmilləşdirilməsi məsələlərinə verilən diqqət, xarici klinikalarda Azərbaycan həkimlərinin öyrədilməsi və təhsili, bütün bu məsələlər hesab edirəm ki, səhiyyə sahəsində ciddi dönüşə gətirib çıxarmışdır və əlbəttə ki, görülən işlərin nəticəsi insanların sağlamlığıdır. Azərbaycanda bu sahədə müsbət dinamika onu göstərir ki, son illər ərzində insanların ömrünün uzunluğu artır, uşaq ölümü, ana ölümü azalır. Biz elə etməliyik ki, bu müsbət dinamikanı saxlayaq və gələcəkdə səhiyyə ilə bağlı nəzərdə tutulmuş bütün məsələlər öz həllini tapsın. Bizim planlarımız çoxdur. Hazırda bir neçə şəhərdə, o cümlədən Bakı şəhərində yeni, müasir səhiyyə ocaqları tikilir və onların istifadəyə verilməsi nəticəsində deyə bilərəm ki, Azərbaycanda səhiyyə sahəsinin maddi-texniki bazası tam şəkildə yeniləşəcəkdir.”

***Bakıda Dünya Səhiyyə Təşkilatının Avropa Regional Komitəsinin 61-ci sessiyasında çıxışından (12 sentyabr 2011)***

***

“Oftalmologiya Mərkəzi yenidən tikilmişdir və dünya miqyaslı bir mərkəzdir. Onkologiya Mərkəzinin yeni korpusları tikilmişdir. Uroloji xəstəxana yenidən qurulmuşdur - neyrocərrahiyyə, cərrahiyyə mərkəzləri, Perinatal Mərkəz, Talassemiya Mərkəzi, keçmiş “Semaşko” xəstəxanası, indi kliniki xəstəxana adlandırılır. Mərkəzi Kliniki Xəstəxana yenidən bərpa edilmişdir. Bu xəstəxananın yeni böyük korpusu tikilməkdədir. Uşaq xəstəxanaları əsaslı şəkildə təmir olunubdur. Yəni, Bakıda son illər ərzində görülmüş işlər səhiyyənin maddi-texniki bazasını böyük dərəcədə gücləndirmişdir. Hazırda tikilməkdə olan Bakı Sağlamlıq Mərkəzi bir neçə böyük xəstəxananı birləşdirəcəkdir. Biz ilin sonuna qədər Bakı Sağlamlıq Mərkəzinin açılışını qeyd edəcəyik.”

***Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə nitqindən (27 aprel 2013)***

***

“Azərbaycan Tibb Universiteti ölkəmizdə həkim kadrların hazırlanmasında xüsusi rol oynayan ali məktəbdir. Bu ali məktəbin böyük tarixi, gözəl ənənələri və əminəm ki, gözəl gələcəyi vardır. Çünki bu gün müstəqil Azərbaycanda səhiyyə sahəsinə ayrılan xərclər artır, səhiyyənin maddi-texniki bazası möhkəmlənir. Belə olan halda əlbəttə ki, tibbi xidmətin səviyyəsi də artmalıdır.

Universitetdə çox böyük təcrübəyə, biliklərə malik olan professor-müəllim heyəti vardır. Əlbəttə ki, sizin bilikləriniz gənc nəslə ötürülür. Elə etməliyik ki, gənc nəsil, gənc həkimlər dünyada səhiyyə sahəsində gedən bütün prosesləri yaxından izləyə bilsinlər. Bunu etmək üçün burada imkanlar, kompyuter otaqları vardır. Əminəm ki, müxtəlif ali məktəblərlə canlı bağlantı da yaradıla bilər. Əməliyyatların izlənməsi üçün gözəl şərait vardır.

Beləliklə, bizim gənc həkimlərimiz dünyada səhiyyə sahəsində gedən bütün mütərəqqi yenilikləri bilməlidirlər. Çünki bu gün dünyada səhiyyə elmi çox sürətlə inkişaf edir. Siz həkimlər bunu hamıdan yaxşı bilirsiniz. Bu gün vaxtilə müalicəsi mümkün olmayan bir çox xəstəliklər əgər vaxtında aşkarlanarsa müalicə edilir. Diaqnostika cihazları, o cümlədən burada quraşdırılan kompyuter tomoqrafları, MRİ, müasir rentgenlər imkan verir ki, istənilən xəstəlik ilkin mərhələdə aşkarlansın və düzgün diaqnoz qoyulsun. Artıq bu cihazların mövcudluğu düzgün diaqnozun qoyulmasında da mühüm bir addımdır və əlbəttə ki, müalicə də düzgün aparılmalıdır.”

“...dünya səhiyyə elminin uğurlu inkişafı insanların sağlamlığına bilavasitə bir töhfədir. Biz çalışmalıyıq ki, dünyada bu sahədə gedən ən son yeniliklər, ixtiralar Azərbaycanda da tətbiq olunsun. Biz buna hazır olmalıyıq. Yaradılan maddi-texniki baza, müasir avadanlıq belə imkanları verir. Həkimlərin peşəkarlığı, bilikləri artmalıdır. Həkimlər daim öz fəaliyyətləri, işləri ilə elə etməlidirlər ki, daha da bilikli olsunlar. Elə edək ki, Azərbaycanda istənilən ən ağır əməliyyat aparıla bilsin. Son illərdə deyə bilərəm ki, biz buna nail ola bilmişik. Çünki bu gün Azərbaycanda ən ağır ürək-damar əməliyyatları, orqan transplantasiyaları aparılır. Ancaq sirr deyil ki, bəzi insanlar, xüsusilə imkanlı insanlar müalicə üçün hələ də daha çox xaricə üz tuturlar. Biz elə bir vəziyyət

yaratmalıyıq ki, buna ehtiyac olmasın. Azərbaycanda ən yüksək tibbi xidmət, ən yüksək peşəkarlıq olmalıdır. Mən əminəm ki, birgə səylər, həm dövlət tərəfindən aparılan siyasət, yeni tibb ocaqlarının yaradılması, müasir avadanlığın mövcudluğu və həm də həkimlərin peşəkarlığı, təkmilləşməsi bizi bu məqsədə nail olmağa gətirib çıxaracaqdır."

***Azərbaycan Tibb Universitetinin Tədris-Cərrahiyyə Klinikasının açılışında nitqindən***
***(12 sentyabr 2013)***

***

"Bu ilin birinci rübünün cəmi iki ayı ərzində Azərbaycanda böyük bir sosial təşəbbüsün icrasını müşahidə edirik. Əhalinin dispanserizasiya proqramı icra edilir. Bu, sırf sosial məna daşıyan bir layihədir. Bu layihənin icra edilməsi üçün əlbəttə ki, ilkin şərtlər olmalı idi. O da ondan ibarətdir ki, müasir avadanlıq, müasir tibb mərkəzləri olmalıdır ki, bunları da biz son illər ərzində bütün ölkə üzrə yaratmışıq. Belə olan halda ən müasir avadanlıqdan istifadə edərək müayinədən keçmək üçün ölkəmizin hər bir yerində imkan vardır. Qısa müddət ərzində - cəmi iki ayda dörd milyon insan bu müayinədən keçib. Hesab edirəm ki, bu təşəbbüs hər il göstərilməlidir və bu, daimi proses olmalıdır."

"...son illərdə, müxtəlif bölgələrdə yeni xəstəxanaların açılışlarında, görüşlər əsnasında bir fikri dəfələrlə vurğulamışam ki, hər bir insan ildə bir dəfə müayinədən keçməlidir. Şadam ki, artıq vətəndaşlar da buna müsbət reaksiya verirlər. Çünki bu, ilk növbədə onlar üçün lazımdır, hər bir insan üçün lazımdır. Bu gün Azərbaycanda müasir tibbi avadanlıqlar var ki, istənilən müayinəni aparmaq mümkündür. Yəni, hesab edirəm ki, bu, sosial siyasətimizin tərkib hissəsi olan çox önəmli bir təşəbbüsdür."

***Nazirlər Kabinetinin 2014-cü ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında giriş nitqindən***
***(13 aprel 2014)***

***

"Azərbaycanın bütün bölgələrində müasir xəstəxanalar tikilir, təmir olunur, diaqnostika mərkəzləri inşa olunur. Son 11 il ərzində Azərbaycanda 500-dən çox tibb müəssisəsi tikilmiş, təmir edilmiş, müasir avadanlıqla təchiz olunmuşdur. Bu, insanlara göstərilən diqqətin təzahürüdür. Çünki insanların sağlamlığı dövlətimiz üçün prioritet məsələdir və müxtəlif tədbirlərin həyata keçirilməsi ilə biz bu işlərdə hesab edirəm ki, dönüş yarada bilmişik. İlk növbədə, demək olar ki, artıq bütün şəhər və rayonlarımızda müasir səhiyyə infrastrukturu var. Həkimlərin peşəkarlığı artır, hazırda Azərbaycanda ən mürəkkəb əməliyyatlar həyata keçirilir."

***Mingəçevir Şəhər Mərkəzi Xəstəxanasında aparılan yenidənqurma işləri ilə tanışlıqdan sonra çıxışından***
***(24 fevral 2014)***

***

"Hazırda 20-dən çox tibb müəssisəsi tikilir və təmir edilir, əhalinin diaqnostikası məsələləri öz həllini tapır, müayinədən keçmə prosesi uğurla gedir. Keçən il 5 milyon, bu il isə təqribən artıq 4 milyona yaxın Azərbaycan vətəndaşı müayinədən keçmişdir. Son illərdə bütün bölgələrdə müasir tibb mərkəzləri yaradılmışdır. Yəni, indi müayinədən keçmək üçün Bakıya gəlməyə ehtiyac yoxdur. Hər bir yerdə müasir tibb ocaqları var ki, insanlara gözəl xidmət göstərməlidir."

***Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında giriş nitqindən***
***(10 aprel 2015)***

***

"Bu gün isə artıq bütün bölgələrdə keyfiyyətli tibbi xidmət almaq üçün müasir avadanlıq, müasir xəstəxanalar var."

***Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransda yekun nitqindən (29 yanvar 2018)***

***

"Azərbaycanda əhali ödənişsiz illik tibbi müayinədən keçir. Hər il 5 milyondan artıq insan bu imkana malikdir. Bu, həmçinin sosial siyasətimizdir. O, bizim mövqeyimizə, inkişaf edən iqtisadiyyata əsaslanır, çünki istək və siyasət kifayət deyil. Siz bu xidmətləri göstərmək üçün imkanlara malik olmalısınız."

***VI Qlobal Bakı Forumunun açılışında nitqindən (16 mart 2018)***

***

"Son illərdə Azərbaycanda 600-dən çox tibb müəssisəsi tikilib və əsaslı təmir edilib. Biz səhiyyə sisteminin maddi-texniki bazasını böyük dərəcədə gücləndirə bilmişik. Təkcə bu il altı şəhərdə yeni xəstəxana tikiləcək. Beləliklə, Azərbaycanın hər bir şəhərində ən yüksək tibbi şərait yaradılır. Altı yüzdən çox xəstəxananın, tibb müəssisəsinin yaradılması, əlbəttə ki, böyük vəsait tələb edir. Azərbaycan dövləti bu vəsaiti ayırır."

***Bakıda Bona Dea Beynəlxalq Hospitalının açılışında nitqindən (27 mart 2018)***

***

Azərbaycanda tibbi xidmətin səviyyəsi artır. Mənim təşəbbüsümlə bir neçə il ərzində artıq kütləvi müayinədənkeçmə proqramı həyata keçirilir. Mən əvvəlki illərdə bu məsələ ilə bağlı fikirlərimi dəfələrlə bildirmişdim, demişdim ki, hər bir vətəndaş ildə heç olmasa bir dəfə gərək tibbi müayinədən keçsin. İndi bunu etmək üçün hər bir rayonda bütün imkanlar var. Dövlət öz dəstəyini göstərərək bu işləri təşkil edir. Bu il keçən ildəki kimi, 5 milyondan çox Azərbaycan vətəndaşı bu imkandan istifadə edib.

***Naftalan Şəhər Mərkəzi Xəstəxanasının açılışında çıxışından (5 iyun 2018)***

***

"Bu gün Pirallahı rayonunda çox əlamətdar hadisəni qeyd edirik. Burada istehsal ediləcək şprislər bizim səhiyyə sistemində istifadə olunacaq və beləliklə, Azərbaycan bu sahədə də idxaldan asılılığı aradan götürmüş olacaq."

***Pirallahı Sənaye Parkında "Diamed" şpris istehsalı zavodunun açılışında nitqindən (16 may 2019)***

***

"Son 16 ildə Azərbaycanın ancaq bölgələrində 22 yeni xəstəxana, 15 diaqnostika müalicə mərkəzi inşa edilib, 28 mərkəzi rayon xəstəxanası əsaslı təmir olunub. Beş xəstəxananın tikintisi isə davam edir. Beləliklə, ancaq bölgələrdə 70 müasir tibb ocağı istifadəyə verilib. Əlbəttə ki, bu tibb ocaqları insanların sağlamlığına xidmət göstərir. Bakı şəhərində də bir çox xəstəxanaların tikintisi, təmiri artıq yekunlaşıb. Bütövlükdə, son 16 ildə ölkəmizdə 700-dən çox tibb müəssisəsi tikilib və əsaslı təmir olunub."

***Goranboy Rayon Mərkəzi Xəstəxanasının açılışında nitqindən***
***(3 mart 2020)***

***

"On altı il ərzində Azərbaycanın səhiyyə sistemində köklü işlər görülmüşdür, həkimlərin peşəkarlıq səviyyəsi yüksəlmişdir, 750-dən çox səhiyyə ocağı tikilmiş və ya tam təmir olunmuşdur. Hər il Azərbaycanda 5 milyondan çox insan dövlət hesabına tibbi müayinədən keçir. Koronavirus xəstələri 20-dən artıq dövlət xəstəxanasında müalicə olunurlar. Bu günlərdə 575 çarpayıdan ibarət olan, ölkəmizin ən müasir və "Yeni klinika" adlanan xəstəxanası onların ixtiyarına verilmişdir. Bu ilin mart ayında ölkəmizin 3 şəhərində üç yeni xəstəxana istifadəyə verilmişdir. Onların ümumi çarpayı sayı 500-dən çoxdur. Bu xəstəxanalar da koronavirus xəstələrinin ixtiyarına verilmişdir. Qısa müddət ərzində 6-sı dövlət, 4-ü isə özəl sahibkarlar tərəfindən tikilməklə, hər birinin 200 çarpayı yeri olan 10 müasir modul tipli xəstəxananın istifadəyə verilməsi nəzərdə tutulur."

***Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşündə çıxışından***
***(10 aprel 2020)***

***

"Hazırda Azərbaycanda səhiyyə sistemində əhəmiyyətli dəyişikliklər baş verir. Azərbaycan icbari tibbi sığorta tətbiq etməklə ilkin tibbi yardımı gücləndirir, təcili tibbi yardım xidmətlərini yeniləyir, ölkədə elektron səhiyyə platforması və dövlət səhiyyə hesablarını istifadəyə verməklə rəqəmsallaşmanı təmin edir."

"Azərbaycan COVID-19 pandemiyasına qarşı qlobal səyləri səfərbər edən ilk ölkələrdən biri olub. Bizim təşəbbüsümüzlə 2020-ci ilin aprelində Türk Şurasının Zirvə toplantısı, 2020-ci ilin mayında Qoşulmama Hərəkatının Zirvə toplantısı və 2020-ci ilin dekabrında BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyası keçirilib. Azərbaycan öz beynəlxalq məsuliyyətinə sadiq olaraq Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə yardımı ayırıb. Biz, həmçinin 30-dan çox ölkəyə koronavirusla mübarizədə birbaşa humanitar və maliyyə yardımı göstərmişik."

***Ümumdünya Sağlamlıq Günü münasibətilə videomüraciətindən***
***(6 aprel 2021)***